**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№374/1** **28 fevral 2025-ci il**

**Auditor təşkilatlarının və sərbəst auditorların 2024-cü ilin yekunu üzrə hesabatlarının təhlili və icmal-tövsiyələr barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.5-ci “Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən 2024-cü ilin yekunu üzrə hazırlanmış layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor təşkilatlarının və sərbəst auditorların 2024-cü ilin yekunu üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabat nəzərə alınsın (əlavə olunur).

2. 2024-cü il ərzində 2023-cü il ilə müqayisədə ölkə üzrə göstərilmiş auditor xidmətinin həcminin 23,8% və ya 22,7 mln. manat artması qənaətbəxş hal kimi dəyərləndirilsin.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki:

3.1. 2024-cü il ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin, aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən orta müqavilə məbləğinin 50%-dən çox olması, müsbət hal kimi dəyərləndirilsin və onlara iki həftə müddətində həftə ərzində təşəkkür məktublarının göndərilməsi təmin edilsin:

**Auditor təşkilatları**

- “ADA Audit” MMC (Elçin Niftiyev)
- “Arqument Audit” MMC (Sadiq Əliyev)
- “AFR Services CO” MMC (Emin Azayev)
- "Alfa Audit" QSC (Vəli Musayev)
- “Alış Group” MMC (Kifayyət Ələkbərova)
- “ATR Audit” MMC (Sevinc Məmmədova)
- "Baker Tilly Audit Azərbaycan" QSC (Şahin Həsənov)
- “Berc Audit” MMC (Elnur Rəsulzadə)
- “Ekspert Finans Konsaltinq” MMC (Zöhrə Misiyafova)
- "F.N.Audit Servis" MMC (Fuad Əliyev )
- "Finstab Audit " MMC (Yusif Yusifzadə)
- "Fchain Audit" MMC (Valid Hüseynov)
- “Four Reason” MMC (Vüsal Qasımov )
- “General Audit CO”. MMC (Qızqayıt Mirzəyevə)
- “Grand Group Audit” MMC (Neyman Abdullayev)
- "HL Company" MMC (Hüsaməddin Həsənov)
- “Himmara Audit” MMC (Elnur Abbaszadə)
- “H.S Consalting” MMC (Azər Əsədov)
- “İATC” MMC (Rüfət Şükürov)
- “İnter Audit” Auditor təşkilatı (Əlimuxtar Bağırov)
- “İnternational Consultinq and Support Services” MMC (Ramin Paşayev)

- “İntex Audit” MMC (Ruhin Əliyev)
- “Kaspian Audit Company” MMC (Cəmil Məhərrəmov)
- “Keynes Finance Group” MMC (Ülvi Abdullayev)
- "Kreston Global CBC" MMC (Rauf Həsənov)
- "Macron Group Azerbaijan" MMC (XosrovYusifov)
- “Master Audit Services” MMC (İlyas Mehdizadə)
- "NZA Audit" MMC (Nihad Axundov)
- "Smart Audit" MMC (Emil Məmmədov)
- “S.M. Audit” MMC (Sevinc İsmayılova)
- “TİMP” MMC (Orxan Məhərrəmov)

**Sərbəst auditorlar**

- Aftandil Əliyev
- Altay Cəfərov
- Aydın Hüseynov
- Cavid Xidirbəyli
- Dəyanət Hüseyzadə
- Elçin Quliyev
- Elnur Seyidov
- Ərşad Şərifov
- Mətanət İsmayılova
- Nail Əlizadə
- Nazim Axundov
- Nicat Məmmədli
- Qulu Cəbizadə
- Rahim Əlizadə
- Rəşad Allahverdiyev
- Rüfət Məmmədov
- Rüfət Quliyev
- Ruslan Əliyev
- Samir Axundov
- Yaqub Əliyev

3.2. 2024-cü il ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən orta müqavilə məbləğinin 50%-dən az olması qeyri-qənaətbəxş hal kimi dəyərləndirilsin və bu halların təkrarlanmaması üçün onlara iki həftə müddətində xəbərdarlıq məktublarının göndərilməsi təmin edilsin:

**Auditor təşkilatları**

- “Abak-Az Crovve Ltd” MMC (Zamin Hüseynov)
- “ABB Audit and Finance” MMC (Balağa Bağırov)
- "AF Audit " MMC (Adil Vahabov )
- “Azəri Audit Servis” MMC (Elvin Rzayev)
- “Ekol Audit” MMC (Elçin Qulizadə)
- "Next Audit Konsaltinq" MMC (Bəhlul Həsənov)
- "One Consulting Group" MMC (Ələddin Babayev)
- "Şəfəq Audit Konsaltinq" MMC (Elnur Abbasov)
- “Xəzər Audit 2019” MMC (Raul Musayev)
- “Your International Consultinq and Audit” MMC (Vüsalə Nəcəfova)

**Sərbəst auditorlar**

- Əmrah Paşayev
- Köçəri Alıyev
- Səxavət İsmayılov
- Vasif Tağıyev
- Vəli Bayramov
- Yaqub Verdiyev

3.3. 2024-cü ilin yekunu üzrə məcburi auditdən keçmə səviyyəsinin aşağı olduğu təsərrüfat subyektləri, o cümlədən məhdud məsuliyyətli cəmiyyətlər (59,0%), səhmdar cəmiyyətləri (85,0%), bələdiyyələr (49,0%) və siyasi partiyalar (30,0%) barədə təsnifləşdirilmə aparılaraq nəticəsinin beş gün müddətində aidiyyəti qurumlara və müəssisələrə göndərilməsi təmin edilsin;

3.4. 2024-cü ildə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən verilmiş 19 mənfi rəyin və 5 rəydən imtina halının səbəbləri araşdırılsın və həmin dövr üçün maliyyə hesabatlarının təkrar auditinin aparılıb-aparılmadığını müəyyənləşdirilərək nəticələri barədə Palata rəhbərliyinə iki həftə ərzində arayışın təqdim edilməsi təmin edilsin;

3.5. Auditor xidməti bazarında qeyri-qanuni fəaliyyət göstərən subyektlərin siyahısı dəqiqləşdirilsin və onlar barədə aidiyyəti dövlət qurumlarına iki ay müddətində müraciətlərin göndərilməsi təmin edilsin.

4. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

4.1. sifarişçilərə göstərilən auditor xidmətlərinin Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərini nəzərə almaqla yüksək səviyyədə və keyfiyyətli aparılmasını təmin etsinlər;

4.2. audit subyektlərinin həyata keçirdikləri satınalma prosedurlarında şəffaflığın artırılmasını təmin etsinlər;

4.3. auditor yoxlaması zamanı sifarişçilərin fəaliyyətində nöqsan və çatışmazlıqların müəyyən edilərək qiymətləndirilməsi və bu halların aradan qaldırılmasına diqqətin artırılmasının vacibliyini nəzərə alsınlar;

4.4. ƏL/TMM üzrə məsul şəxslərin lazımi bacarıqlara malik olmasını və həmçinin öz öhdəliklərini lazımi qaydada yerinə yetirməsini, şirkətdaxili keyfiyyətə nəzarət sisteminin qurulmasını, auditdə informasiya-texnologiyalarından (İT) istifadənin genişləndirilməsini təmin etsinlər;

4.5. auditin təşviqi və maarifləndirilməsi üzrə təşkil olunan tematiki seminar və "dəyirmi masa"larda əməkdaşlarının iştirak etmələrini təmin etsinlər;

4.6. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə və qiymət dempinqinə yol verilməməsinə riayət etsinlər.

5. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (V.Talıbov) ilə birlikdə 2025-ci ildə haqsız rəqabətin aradan qaldırılması haqqında metodiki vəsaitlərin təkmilləşdirilməsi, auditor xidməti bazarında haqsız rəqabətə yol verən auditorlara qarşı təsirli və çevik tədbirlərin görülməsi, bu sahədə hüquq pozuntularının profilaktikası və aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi təmin edilsin.

6. Bu qərarın mətni "Auditorun şəxsi kabineti" sisteminin "xəbərlər" bölməsində və Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**